***Dünyanın müxtəlif dillərində özünə yer tapmış və müxtəlif vəziyyətlərdə fərqli mənalar kəsb edən belə bir ifadə var: qadın böyük qüvvədir. Bu yerdə qüdrətli sərkərdə Çingizxanın sözlərini xatırlatmaq istərdik. Rəvayətə görə, bir gün Çingizxan ordusuna səslənərkən mən sizin xanınızam, bu da mənim xanımımdır deyərək, həyat yoldaşını göstərmişdir. Günümüzdə də öz aktuallığını qoruyan “xanım” sözünün bu hadisədən sonra yarandığı iddia edilir.***

# Dünya qadın haqlarına ehtiram göstərir

Qadınlar tarix boyu bərabər hüquq və azadlıqları üçün mübarizə aparmış, müxtəlif dövrlərdə bu mübarizə şiddətlənərək, hərəkata çevrilmişdir.

Bu xarakterli qadın hərəkatları XIX əsrin ortalarında “feminizm” adını almışdır.

Feminizm cinsiyyətçilik, cinsi istismar və zülmə son qoymağı hədəfləmək və buna qarşı mübarizə aparmaq kimi başa düşülür.

Feminizm hərəkatı tarixən 3 əsas dövrə bölünür. XIX əsrin sonu, XX əsrin əvvəlləri feminizmin birinci dalğası kimi xarakterizə edilir. Həmin dövrlərdə qadınların əsas mübarizə meydanı səsvermə, təhsil və mülkiyyət hüquqlarının tanınması idi. Qeyd edək ki, Amerika və Avropada qadınlara qarşı zorakılıq, feminizm daha kəskin və böyük miqyaslı olduğundan həmin qitələrdə qadınların öz hüquqları uğrunda apardıqları mübarizə qat-qat güclü olub.

Bu mübarizə Osmanlıdan da yan keçməmiş, əksinə zaman keçdikcə daha da güclənmişdir. Belə ki, Osmanlı qadınları əvvəlcə öz düşüncə və hisslərini ifadə etdikləri qəzet və jurnallar dərc etdirməyə başlamışlar. Bu jurnallar mərhələ-mərhələ irəliləyərək qadınlar arasında həmrəyliyə, daha sonra isə hərəkata çevrilmişdir. Qadınlar qurduqları dərnəklər vasitəsilə mütəşəkkil şəkildə hərəkətə keçir, təhsil, mədəniyyət sahələrində və ümumi məsələlərdə yardımlaşmağa başlayırdılar. Bu yardımlaşma dərnəkləri daha sonra ölkənin ümumi problemlərini həll etməyə çalışan siyasi partiyalara qoşulmuş, bununla da yeni bir mərhələyə qədəm qoymuşdur. Qadınlar müxtəlif peşə və fəaliyyətlərdən topladıqları pulu dərnəklər vasitəsilə ehtiyacı olanlara çatdırır, hər yaşda olan həmcinslərinin təhsil alması üçün mübarizə aparırdılar.

Qadın hərəkatının 2-ci dalğası 1960-cı illərdə başlamışdır. Bu mərhələdə qadınlara siyasi partiyalarda yer almaq, əmək fəaliyyətində, eləcə də, incəsənət sahəsində seçim edərkən ayrı-seçkilik qoyulmamaq haqqının tanınmasıdır.



Feminizm hərəkatı 3-cü mərhələdə qadın haqları başda olmaqla dünyanı maraqlandıran bütün problemlərlə mübarizə aparmağa başlamış və qlobal bir mücadiləyə çevrilmişdir. Bu problemlərə irqçilik, ekoloji çirklənmə, nüvə silahları təhdidləri, ümumilikdə, planetimiz üçün zərərli ola biləcək hər bir ünsür, bununla yanaşı, insan haqq və azadlıqlarını azaldan bütün adət-ənənələr daxildir.

Statistikaya görə, mart ayının gəlişi ilə insanları ən çox düşündüyü, soruşduğu və araşdırdığı məsələlərdən biri də məhz 8 Mart gününün tarixidir. 8 Mart Beynəlxalq Qadınlar Gününün tarixi daha yaxşı iş şəraiti əldə etmək istəyən qadınların birlikdə işlədikləri fabriklərdə tətil elan etmələri ilə əlaqəlidir. Belə baykot kompaniyası 1857-ci ildə ABŞ-ın Nyu-York ştatında başlamışdır. Belə ki, həmin il toxuculuq fabriklərində çalışan 40 min qadın iş şəraitlərinin yaxşılaşdırılması üçün tətil elan etmiş, bu da böyük qarışıqlığa vələngimələrə gətirib çıxarmışdır. Həmin tətil aksiyalarına qarşı çıxan polislər qadınlara hücum etmiş və fabrikləri bağlamışdır. Hadisələr nəticəsində fabriklərdə yanğınlar başlamış, böyük əksəriyyəti qadın olmaqla 169 nəfər həyatını itirmişdir.

Beynəlxalq Qadınlar Gününün qeyd edilməsi ilə nəticələnən həmin hadisədə həyatını itirən qadınların dəfn mərasiminə 100 mindən çox insan qatılmışdır. Hadisədən 53 il sonra Danimarkada keçirilən qadınlar toplantısında Almaniyanın Sosial Demakrat Partiyasının qurucularından olan Klara Setkinin təşəbbüsü ilə 8 martın “Dünya işçi qadınlar günü” olaraq qeyd edilməsi təklifi irəli sürülmüşdür. Daha sonra – 1921-ci ildə Moskvada keçirilən növbəti toplantıda 8 mart tarixi “Dünya İşçi Qadınlar Günü” olaraq qəbul edilmişdir.

Bu tarixin qeyd edilməsi Birinci və İkinci dünya müharibələri dövründə bir çox ölkə rəhbərliyi tərəfindən qadağan edilsə də, XX əsrin 60-cı illərinin sonlarında ABŞ-da da qeyd edilməyə başlanılması ilə daha güclü bir şəkildə gündəmə gəlmişdir. Beləliklə, 1977-ci il 16 dekabr tarixində Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 8 Martın Beynəlxalq Qadınlar Günü kimi qeyd olunması barədə qərarı qəbul etmişdir.

Lakin təəssüflər olsun ki, bütün bunlara baxmayaraq, günümüzdə də qadına şiddət, qadınların işləmək, təhsil almaq haqlarının məhdudlaşdırılması halları kifayət qədərdir. Dünyanın müxtəlif ölkələrində bu hadisələrin qarşısını almaq üçün dövlət səviyyəsində mübarizə aparılsa da, bu problemin tamamilə həll edilməsi müşkül görünür. Zənnimizcə, bu məsələnin həlli təkcə belə hadisələr törədən insanların, iş yerləri və təhsil müəssisələrinin, hətta dövlət qurumlarının cəzalandırılması deyil, eləcə də ümumi zehniyyətin dəyişdirilməsi, dəyişə bilməsi üçün mübarizə aparmaqdan keçir. Təhsil, təlim tərbiyə məsələlərində görüləcək tədbirlər qadın haqlarının daha rahat təmin edilməsində ən mühüm faktorlardan biridir. Ekspertlərin fikirlərinə əsasən təhsil səviyyəsi daha yüksək olan ölkələrdə qadınlara yönəlmiş şiddət və cinayət halları digər ölkələrə və regionlara görə nisbətən azdır. Sevindirici haldır ki, ölkəmizdə də bu məsələ ilə bağlı dövlət tərəfindən xüsusi tədbirlər görülür, qadınların hüquq və azadlıqlarının təmin edilməsi üçün yüksək səviyyədə mübarizə aparılır.